UOT 338

Mehriban Ağasəf qızı İMRANOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, doktorant
Email:mehriban_i@yahoo.com
ORCID:0000-0002-9112-6252
https://doi.org/10.30546/4.71.73001.2024.004.042

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA KLASTERLƏŞDİRMƏNİN PERSPEKTİVLƏRİ BARƏDƏ

Xülasə

Tədqiqatın məqsədi - inkişaf etmiş ölkələrin klasterləşdirmə təcrübəsini öyrənərək Azərbaycanda klasterləşdirmənin nəzəri və təcrübi vəziyyətindən bəhs etmək, iqtisadiyyatın inkişafının innovativ mexanizmlərindən biri kimi sənaye klasterlərinin perspektiv inkişafı barədə fikir mübadiləsi aparmaq, uzunmüddətli perspektivdə Azərbaycanda neft-kimya istehsalının innovativ klasterlərlə təminatı və respublikanın iqtisadi inkişafının təmin edilməsində klasterlərin təşkili və istifadəsi üzrə elmi və təcrübi amilləri araşdırmaqdır.

Tədqiqatın metodologiyası - qarşıya qoyulmuş problemə yanaşmada sistemli təhlil, struktur metodları, müqayisəli təhlil, ümumiləşdirmə, strateji proqnozlaşdırma və s. metodlardan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – alınmış nəticələrdən neft-kimya sənayesinin uzunmüddətli inkişaf strategiyasını təmin edəcək klasterləşdirmə texnologiyasının hazırlanmasında, habelə klaster idarəetməsinin genişləndirilməsində və ali məktəblərdə müvafiq ixtisaslar üzrə tədrisdə istifadə edilə bilər.

Tədqiqatın nəticələri – neft-kimya sahəsinin müasir inkişaf səviyyəsi nəzərə alınmaqla uzunmüddətli klasterləşdirmə strategiyasının hazırlanması və tətbiqi üzrə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə baxılan problemlərin həlli üzrə dünya təcrübəsi tədqiq olunmaqla müasir şəraitin tələblərinə uyğun yanaşmalar formalaşdırılmışdır. Habelə Azərbaycanın neft-kimya sənayesi üzrə klasterlərin yaradılması və fəaliyyətlərinin inkişafının əsas strateji məqsədləri göstərilməklə, uzunmüddətli dövr üçün klasterlərin başlıca prioritetləri göstərilmiş, innovativ klasterlərin sənaye, kənd təsərrüfatı və xidmət sahələri üzrə fəaliyyət istiqamətləri üzrə uzunmüddətli perspektivdə təşkili təşəbbüsü irəli sürülmüşdür.

Açar sözlər: klaster, neft-kimya sənayesi; regional iqtisadiyyat, innovasiya, perspektiv inkişaf.

Giriş

Dünyanın qabaqcıl ölkələrinin, xüsusən Avropa ölkələrinin təcrübəsindən göründüyü kimi, iqtisadiyyatın klasterləşməsində əsas rolu, klaster təşəbbüslərinin həyata keçirilməsi üçün institusional və hüquqi şəraiti formalaşdıran, müxtəlif səviyyələrdə idarəetmə ilə təmsil olunan, iştirakçıların maraqlarını əlaqələndirmək üçün platforma təşkil etmək və maliyyə dəstəyi göstərmək yolu ilə, dövlət oynayır. Məhz dövlət, regionların strateji inkişafına yönəlmiş ayrı-ayrı klasterlərin inkişaf məqsədlərini ərazilərin sosial-iqtisadi inkişaf məqsədləri ilə əlaqələndirir. Bu, əlavə dəyər istehsal zəncirinin bütün zəruri halqalarının ərazidə lokallaşdırılması, ərazi resurslarının səmərəli səfərbər edilməsi, habelə onun açıq bazarlarda rəqabət qabiliyyətini təmin edəcək təşkilati bölmələrin formalaşdırılmasının vacibliyi ilə ifadə olunur. Son illərdə investisiya prosesinin bütövlükdə təhlili Azərbaycanda investisiya mühitinin yaxşılaşması, sahə quruluşunun və mənbə müxtəlifliyinin genişlənməsini sübut edir. Ona görə də çıxış yolu, investisiyanın daha tez səmərə verə biləcəyi sahələrə, xüsusi ilə qeyri-neft bölməsinə yönəldilməsi çox vacibdir. Təcrübə göstərir ki, belə sahələrə qoyulan investisiya qısa müddətdə real inkişafı təmin edir.

Azərbaycanda sənayenin mühüm bölməsi olan Yanacaq-enerji kompleksi iqtisadiyyatın həlledici sahələrindən biri olmuşdur və eyni zamanda o yüksək enerjitutumlu digər sahələrin

fəaliyyəti və perspektiv inkişafı üçün çox vacib rol oynamaqdadır. Neft müqavilələrinin uğurla reallaşdırılması, Azərbaycanın de-fakto dünya neft-qaz bazarına çıxmasına səbəb olmuşdur. Ona görə də neft sektorunun inkişafı, yaxın gələcəkdə də bir sıra digər sənaye sahələrinin, o cümlədən, qeyri-neft sektorunun intensiv inkişafını təmin edəcəkdir. Bu səbəbdən də yanacaq-enerji və neft-kimya komplekslərinin və energetikanın normal inkişafını təmin etmək problemləri tezliklə radikal və bəlkə də qeyri-ənənəvi üsullarla həll edilməlidir.

Bütün bu deyilənlərlə yanaşı, ölkədə iqtisadi inkişafı sürətləndirmək və tarazlaşdırmaq üçün iqtisadi siyasət elmi əsaslarla qurulmaqla, həm təbii-iqtisadi ehtiyatlardan səmərəli istifadəyə şərait yaratmalı, həm də yerli özünüidarə və icra orqanlarının təşəbbüskarlığını və iqtisadi fəaliyyətdə müstəqilliyini artırmalıdır.

Bütövlükdə, iqtisadi siyasətin indiki mərhələdəki ən mühüm şərtlərindən biri, onun real sektorun innovativ yolla sağlamlaşdırılmasına istiqamətləndirilməsi olmalıdır. Şübhəsiz ki, burada aparıcı mövqe, qeyri-neft sektorunu əhatə edən orta və kiçik sahibkarlıq mülkiyyətçilərinə məxsusdur və bu baxımdan iqtisadiyyatın inkişaf sürətinin və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün, fikrimizcə, aşağıdakıların həyata keçirilməsi zəruridir:

- Sahibkarlığın istehsal və infrastruktur potensialının möhkəmləndirilməsi və yenilərinin yaradılması üçün stimullaşdırıcı innovativ layihələrin təşkili;
- yerli və xarici sahibkarlar üçün əlverişli hüquqi, iqtisadi, sosial, investisiya və innovasiya mühitinin yaradılması;
- real iqtisadi imkanları nəzərə ala biləcək innovasiya texnologiyalarının formalaşdırılması, güclü sahibkarlar təbəqəsinin və işgüzarlıq mühitinin yaradılması;
- ölkənin iqtisadi rayonlarında səmərəli fəaliyyət göstərə bilən klaster mərkəzlərinin təşkili və davamlı fəaliyyətinin təmin edilməsi.

Bu amilləri nəzərə alaraq, hesab edirəm ki, dövlətin iqtisadi siyasətinin ən vacib vəzifələrindən biri əhalinin rifah halının yaxşılaşdırılması olduğu üçün, yaxın gələcəkdə iqtisadi siyasətin sosial və innovasiyayönümlülüyünün gücləndirilməsi zəruridir.

Bu **problemlərin həlli vasitəsi** proqram yanaşması ola bilər ki, onun imkanları iqtisadiyyatın istənilən səviyyəsində inteqrasiya proseslərinin həyata keçirilməsinə imkan verir. İqtisadiyyatın ərazi klasterləşdirilməsinin həyata keçirilməsinə proqramlı yanaşma, idarəetmənin bütün səviyyələrini əhatə etməlidir. Klaster stimullaşdırma layihələrinin uğurlu icrası, regional strategiya ilə mümkündür. Regional strategiya hazırlayarkən, bütövlükdə bölgənin əsas böyümə nöqtələri nəzərə alınmalıdır. Regional aspektdə fundamental elmi birləşdirən klasterlər, yeni yüksək texnoloji istehsal müəssisələrinin tənzimlənməsi üçün şərait yaradır, prioritet investisiya qoyuluşlarını müəyyənləşdirir və sərfəli investisiya qərarları qəbul etmək üçün kompleks istehsal və texnoloji paketlər yaradır. Klasterlərə investisiyaların cəlb edilməsi, region iqtisadiyyatının inkişafının multiplikativ effektini təmin edir. Klasterlər yeni texnika və texnologiyaların tətbiqinə, dinamik bazar mühitində regional iqtisadiyyatın sabitliyini təmin edən yüksək texnoloji sahələrin inkişafına kömək edir.

İqtisadiyyata “klaster” terminini ilk dəfə daxil edən M.Porterin fikrincə: “Klaster-müəyyən bir ərazidə fəaliyyət göstərən və ümumi fəaliyyətlə səciyyələnən və bir-birini tamamlayan, coğrafi baxımdan bir-birinə yaxın olan şirkətlər və qarşılıqlı əlaqəli təşkilatlar qrupudur”[4].

Tərifə əsasən "klaster"lərin xüsusi cəhətlərini aşağıdakı kimi vermək olar:

- vahid istehsal dövrü (tsikli) prosesində davamlı, sistemli şəkildə həyata keçirilən kooperasiyaya əsaslanan istehsal və texnoloji birlik;
- vahid inzibati və iqtisadi nəzarət mərkəzinin mövcudluğunu əks etdirən vahid strateji məqsədin və ya hədəflər qrupunun olması ilə müəyyən edilən təşkilati birlik;
- istehsalın klaster təşkilinin üstünlüklərinin reallaşdırılması üçün zəruri infrastruktur (qanunvericilik, texniki, texnoloji, informasiya, maliyyə, elmi, maddi-texniki, rabitə və s.) şəraitinin olması.

Tədqiqatlar göstərir ki, “klasterlərdə sinergik effekt: a) klasterdə bilik və innovasiya axınının təsiri; b) klasterə daxil olan şirkətlərin pul vəsaitlərinin hərəkətinin cəmlənməsi hesabına onların

artımının təsiri; c) infrastruktur obyektlərindən birgə istifadənin təsiri; d) əməliyyat xərclərinin azaldılması” sayəsində əldə edilir [2].

Bildiyimiz kimi, ərazi klasteri istehsalın təşkilinin inteqrasiya forması kimi region iqtisadiyyatının sürətli inkişaf tempini təmin etməyə qadirdir və onun klasterləşməsi prosesi, bazar iqtisadiyyatının keyfiyyətcə transformasiyası mexanizmi kimi qəbul edilir. Klaster üzvləri arasında yaranan əlaqələr əsasında regional iqtisadiyyatın davamlı inkişafını təmin edən sağlam rəqabət formalaşır. İqtisadi cəhətdən inkişaf etmiş- Almaniya, Fransa, Kanada, Finlandiya, Belçika, Norveç kimi ölkələrin təcrübəsi göstərir ki, klasterin inkişaf strategiyası uzunmüddətli perspektivdə regionların və sənaye sahələrinin rəqabət qabiliyyətini təmin edir. İsveçdəki sellüloz-kağız klasterini; Danimarkanın aqrar-sənaye klasterini; Almaniyanın mühəndislik klasterini və s.nümunə kimi göstərmək olar. Mövcud olan 500 klaster sxeminin təhlili göstərir ki, təmsil olunan ölkələrin iqtisadiyyatlarının yüksək rəqabət qabiliyyəti ayrı-ayrı klasterlərin güclü mövqelərinə və platformalarına əsaslanır. [6].

Azərbaycanda istehsalın ərazi təşkilinə klaster yanaşması yalnız ilk addımlarını atır. Regionlardakı icra hakimiyyəti orqanları bu yanaşmanın üstünlüklərini və ərazi iqtisadiyyatının klaster inkişafı ehtiyacını yenicə dərk etməyə başlayırlar. Bu gün sənaye klasterlərinin yaradılması ölkənin iqtisadi inkişafının dayanıqlığını təmin etmək üçün ən səmərəli mexanizmlərdən biridir. İqtisadi inkişaf, mahiyyət etibarilə, həmişə müxtəlif sosial-iqtisadi tədbirlərin, görülmüş işlərin, məsrəflərin və gəlirlərin nəticəsidir. İqtisadiyyatda struktur dəyişiklikləri və tərəddüdləri, adətən iri resurs rayonlarının “həyat fəaliyyəti” vəziyyətinə tez təsir göstərə bilmir. Regionların iqtisadi inkişafının yeniliklərindən biri, sənaye sahələrinin xüsusi kateqoriyasının - sənaye klasteri yanaşmasının inkişafıdır. Sənaye klasterlərinin formalaşması və fəaliyyət göstərməsi, rəqabətqabiliyyətli regional iqtisadiyyatın inkişafı üçün klaster modellərindən istifadə, eləcə də onların üstünlükləri və çatışmazlıqları-görkəmli iqtisadçı alimlər tərəfindən elmi tədqiqatlarla nəzəri və təcrübi cəhətdən nəzərdən keçirilmişdir. Bununla belə, mürəkkəb, nəzəri cəhətdən əsaslandırılmış və ümumi qəbul edilmiş yanaşmalara görə, sənaye klasterinin birmənalı təsvirini vermək mümkün deyildir.

Sənaye klasteri dedikdə, adətən, ümumi maliyyə, maddi-texniki və informasiya göstəriciləri ilə birləşən firmalar qrupu başa düşülür. Onları, qarşılıqlı olaraq bir-birini tamamlayan ümumi fəaliyyət birləşdirir. Eyni zamanda, onlar bir-biri ilə mülkiyyət münasibətləri ilə birbaşa bağlı deyildirlər, yəni müstəqil, bir-birindən asılı olmayaraq fəaliyyət göstərə bilirlər. Hazırda əksər inkişaf etmiş ölkələrin iqtisadiyyatları rəqabətqabiliyyətliliyin etibarlı vasitəsi olan klasterin inkişaf modelindən istifadə edirlər. Çünki bu, maliyyələşmənin artmasına, səlahiyyətlərin güclənməsinə, satış bazarlarının artmasına gətirib çıxarır. Klaster- sektorlararası əlaqələrə əsaslanır. Klasterləşmə ideyası tədricən hər biri konkret son istehlakçıya yönəlmiş ayrı-ayrı sənaye qruplarının və alt sektorların formalaşmasında öz əksini tapır. Aşağıdakı əsas xüsusiyyətlər klasterlər üçün vacibdir [4]:

- istehsal olunan məhsulların ümumiliyi;
- coğrafi lokalizasiya;
- klaster daxilində obyektlərin sıx qarşılıqlı əlaqəsi.

Funksional klasterlərin üç növü fərqləndirilir:

1. Sənayenin bu və ya əlaqəli sektorları daxilində, çox vaxt bu və ya digər elmi məktəbə (tədqiqat institutları, universitetlər və s.) bağlı olan regional qruplar;

2. Şaquli istehsal zəncirləri, burada istehsal prosesinin bitişik mərhələləri klasterin əsasını təşkil edən, müəyyən edilmiş məhdud sektorlar;

3. İstənilən əsas sənaye sahəsinə münasibətdə müəyyən edilmiş genişmiqyaslı sənaye birlikləri.

Klasterlər, lokalizasiya və təmərküzləşmənin statistik göstəriciləri və milli mədaxil-məxaric balansı əsasında müəyyən edilir. Regional iqtisadiyyatda klasterin effektivliyini və profilini qiymətləndirmək üçün cəlbedicilik (klasterin regionun sosial-iqtisadi inkişafı məqsədlərinə cavab vermək qabiliyyəti) və sağ qalmaq-yaşamaq (klasterin fəaliyyət göstərmək qabiliyyəti) kimi meyarlardan istifadə olunur.

Əksər ölkələrin və onların regionlarının iqtisadi inkişafının əsas məqsədi əhalinin həyat keyfiyyətinin yüksəldilməsidir. Hazırda ortamüddətli perspektivdə iqtisadi inkişafın uğuru sənaye artımının bərpası ilə birbaşa bağlıdır. Sosial-iqtisadi regional inkişaf əhalinin həyat səviyyəsinin göstəricilərinin müsbət dinamikasına yönəlmiş regional multifaktorial sistemin fəaliyyətinin nəticəsidir.

Bütövlükdə, ölkənin və regionların dinamik inkişafı üçün mövcud təbii ehtiyatlar, əlverişli coğrafi mövqe əsasında sənaye klasterlərinin formalaşmasını sürətləndirmək və böyük həcmdə sənaye istehsalı yaratmaq lazımdır. Azərbaycanın sənaye potensialının artırılması və istehsal avadanlıqlarının müasirləşdirilməsi siyasəti son illər aydın şəkildə özünü göstərir. İstehsal qüvvələrinin formalaşması, inkişafı və təmərküzləşməsi mexanizmləri əsaslı şəkildə dəyişir. Yeni texnoparklar həm daxili bazar, həm də xarici bazara çıxmaq üçün nəzərdə tutulmuş kütləvi istehsalın intensiv inkişafına yönəlmiş iri sənaye obyektlərinin lokallaşdırılması üçün nəzərdə tutulmuşdur. Ələtdə böyük bir nəqliyyat qoşağının yaradılması bunun bariz nümunəsidir. Bütün vacib əmtəələrin istehsalının təşkilində klasterləşdirmə - polad istehsalının, metallurgiya zavodlarının və alüminium sənayesinin istehsalı və emalının təmin edilməsi sahələrində, dövlət və özəl sahibkarlığın inkişaf etdirilməsində əsas məqsəd, son məhsulun istehsalı və istehlakçıya çatdırılmasında birgə fəaliyyət göstərməyi nəzərdə tutur[4].

2009-cu ildə “Azərbaycan Respublikasında iqtisadi zonaların yaradılması haqqında” Qanunun qəbulu ilə ölkənin regionlarında innovasiya fəaliyyəti və iqtisadiyyatın müxtəlif sahələrinin müasirləşdirilməsi imkanları genişləndirilmişdir. Bu prosesdə, həm də ölkə iqtisadiyyatının dünya bazarında neftin qiymətinin qeyri-sabit vəziyyətindən asılı olmayaraq, müstəqilliyini təmin edən qeyri-neft sənayesinin intensiv inkişafı və Azərbaycanın mövqelərinin möhkəmlənməsi kimi mühüm nəticələr əldə edilə bilər [1].

Son vaxtlar Azərbaycanda dövlət vəsaiti hesabına sənaye parkları fəal şəkildə yaradılır və özəl şirkətlərin bu istiqamətdə fəaliyyətini stimullaşdırmaq üçün onlara kreditlər ayrılır. Sumqayıt və Balaxanı sənaye parklarının, Yüksək Texnologiyalar Parkının açılışı olub. Gəncədə, Mingəçevirdə və Bakının Qaradağ rayonunda müasir sənaye şəhərciklərinin salınması həyata keçirilmişdir.

Son illərdə biznes- inkubatorlar yaradılır ki, onların məqsədi İKT sektorunun, elmtutumlu istehsalın, sənayedə, aqrar sektorda, xidmət sektorunda və s.-də elmi tədqiqatların inkişafı üçün biznes ideyalarının sınaqdan keçirilməsidir. Quba-Xaçmaz iqtisadi zonasında ilk biznes inkubator, Aran iqtisadi zonasında və Sumqayıt Kimya Sənaye Parkında biznes-inkubatorların açılması bu məqsədə xidmət edir [3].

Azərbaycan Respublikasının 2030 - cu ilə qədər olan dövr üçün sənaye kompleksinin inkişafı Proqramına əsasən, regional klasterlərin formalaşmasının əsas formalarından biri, beynəlxalq şirkətlərin cəlb edilməsinə və Azərbaycan istehsalçılarının, o cümlədən kiçik və orta şəhər yaşayış məntəqələrində sənaye təşkilatlarının onlarla əməkdaşlığının qurulmasına yönəlmiş inkişaf etmiş zonaların (o cümlədən azad iqtisadi zonalar əsasında) formalaşması olacaqdır. Sənaye zonası çərçivəsində həyata keçirilən layihələr vahid konsepsiya ilə əlaqələndiriləcək, təşkilatın yaradılması üçün planlaşdırılan layihələr bir-birini tamamlayacaqdır[5].

Klasterin digər birləşmə formalarına nisbətən üstünlüyü, üzvlükdən daha çox real münasibətlər, sənaye, müəssisə və təşkilatçılıq arasındakı əlaqələrə konsentrasiya ilə müəyyən edilir. Bunlar aşağıdakılara kömək edir:

- istehsalın və rəqabətin inkişafı;
- yeni texnologiyalara çıxışın sadələşdirilməsi;
- müxtəlif birgə fəaliyyət növlərində risklərin bölüşdürülməsi;
- birgə elmi tədqiqatların təşkili və mütəxəssis hazırlığı;
- əməliyyat xərclərinin azaldılması və s.

Bölgənin rəqabət qabiliyyətinin idarə edilməsi, investisiya və yeniliyi bölgənin iqtisadi məkanında baş verən innovativ investisiya proseslərinin ayrılmaz birliyində, bir sistem kimi nəzərdən keçirməyə imkan verir. Bu proseslər innovasiyaların kompleks şəkildə yaranmasını və nəticələri-

nin kommersiyalaşdırılmasını, sistemin həyat dövrlərinin ardıcıl mərhələlərinin sürətlə keçməsini və bölgədə inkişaf etdirilməli olan müasir institusional, innovativ, investisiya-maliyyə, istehsal və sosial infrastrukturların sistemli inkişafını təmin edir [6].

30 illik işğaldan sonra azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında klasterləşdirmənin üstünlüklərindən istifadə olunması olduqca vacibdir. Əvvəla, bu iqtisadi rayonlar çox zəngin yeraltı və yerüstü təbii sərvətlərə malik olduqlarından, bu ərazilərdə həm sənaye klasterlərinin, həm də aqrar yönümlü innovativ klasterlərin təşkili olduqca əlverişlidir. İkincisi, klasterləşdirmə, bu əazilərdə qayıdış və bərpa işlərində təkanverici amil kimi istifadə oluna bilər. Üçüncüsü isə, əhalinin məskunlaşması və məşğulluğun artırılması amili, həm də ümumxalq və ümumdövlət maraqlarına xidmət edir. Hər üç yanaşmanın ən böyük iqtisadi üstünlüyü, onun ümumxalq mənafeyinə və rifaha xidmət etməsidir. Bu ərazilərdə klasterlərin təşkili həm də ona görə iqtisadi cəhətdən sərfəlidir ki, burada köhnə idarəçilik sistemindən fərqli olaraq, daha müasr və daha səmərəli idarəçilik şəbəkəsi qurulacaqdır ki, bu da ən müasir idarəetmə texnologiyalarından istifadəyə imkan yaradacaqdır.

Əslində, daha dəqiq ifadə etsək, bu regionlarda yaradılacaq klasterlər və klasterləşdirmə prosesi, ölkəmizin digər regionlarında klasterləşdirmə üçün bir model rolunu oynaya bilər. Belə ki, innovativ klasterlərin təşkili və fəaliyyətinin həyata keçirilməsi, xarici və milli investorların bu işlərə cəlb olunmasının dövlət səviyyəsində təşkilnə nümunə olacaq və yerli sahibkarların xarici təcrübələrdən yararlanmalarına münbit şərait yaradacaqdır.

İqtisadiyyatı böhrandan çıxarmağın ən təsirli yollarından biri, onun inkişaf etmiş sənaye və elmtutumlu innovativ iqtisadiyyata keçirilməsidir. Hal-hazırda təbii ehtiyatlara əsaslanan iqtisadiyyat ölkələri maliyyə və iqtisadi böhrana yönəldikləri üçün, dövlətin ən vacib vəzifəsi innovativ inkişaf yoluna keçidi təmin etməkdir. Azərbaycan dövləti, iqtisadiyyatını xammal yolundan İnnovativ inkişaf yoluna keçirməyə imkan verən əsas sənədləri işləyib hazırlamalı və qəbul etməlidir. Çünki, müasir reallıqlar yüksək texnoloji sahələrin inkişafına, elm şəhərciklərinin və texnoparkların inşasına ehtiyac olduğunu diktə edir.

Azərbaycan iqtisadiyyatının klasterləşdirilməsinin əsas istiqamətləri üzrə araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, hazırda qlobal iqtisadiyyat, cəmiyyətin ümumi informasiyalaşdırılması və rəqabət çərçivəsində Azərbaycan regionlarının iqtisadi proseslərinin əsas xüsusiyyətləri aşağıdakılardır [3]:

1) ərazi istehsal strukturlarının formalaşmasının planlaşdırılması;
2) onların yüksək sosial-iqtisadi səmərəliliyinin təmin edilməsi;
3) əməkdaşlıq prinsiplərinin gücləndirilməsi;
4) daxili və xarici sahəvi və sahələrarası istehsal-iqtisadi əlaqələrin genişləndirilməsi.

Ərazinin ixtisaslaşmasına sistemli kompleks yanaşma istehsalın səmərəliliyi və rəqabətqabiliyyətliliyi amillərinin xüsusiyyətlərindən, sahə və ərazi planlaşdırmasının birləşdirilməsi imkanlarından daha səmərəli istifadə etməyə və regionun daha rəqabətqabiliyyətli iqtisadi strukturunu formalaşdırmağa imkan verir. Regionların rəqabəti, bütövlükdə onların müxtəlif hədəf qruplarını, yerli resursların istehlakçılarını “qazanmaq” və daha yaxşı yaşayış şəraitini təmin etmək istəyi ilə, eləcə də siyasi, qanunvericilik, iqtisadi, ekoloji mühafizə orqanları arasında rəqabət kimi baxılır.

Əlverişli iqtisadi və coğrafi mövqeyə, xüsusən də ölkənin paytaxtına yaxınlıqda olan Sumqayıt bölgəsi neft-kimya sənayesi kimi bir istiqamətin innovativ inkişafı üçün bütün imkanlara malikdir. Kimya sənayesi klasterinin formalaşması üçün, qeyd edildiyi kimi, yeni texnoparkların, sənaye müəssisələrinin inşasına, innovativ sahələrin inkişafına kömək edəcək investisiyalar lazımdır. İqtisadi inkişaf strategiyası göstərir ki, neft-kimya sənayesi bu bölgənin innovativ inkişafında ilkin prioritetdir. Yaxın 10-20 il ərzində sərfəli gücü və dünya səviyyəsində rəqabət qabiliyyətli, yüksək keyfiyyətli məhsullar zəncirlərinin formalaşmasına yönəlmiş bir sıra tədbirlərin həyata keçirilməsini təmin etmək lazımdır. Sumqayıt bölgəsinin işlək şirkətləri ətrafında xammal prinsipinə görə qruplaşdırılmış istehsal qruplarının yaradılması məsləhət görülür. Mövcud olan və alayarımçıq işləyən şirkətlər əsasında əsas üzvi sintez məhsullarının dərin emalını inkişaf etdirmək və daxili

bazarda istehlakı genişləndirmək üçün texnoparkları genişləndirmək lazımdır. Sumqayıt bölgəsinin kimyəvi istehsalının mövcud quruluşuna əsaslanaraq kimya və neft-kimya klasterinin yaradılması məqsədəuyğun görünür.

Sumqayıt bölgəsində kimya sənayesi klasterinin formalaşması istehsal bazasının genişləndirilməsini, xüsusən nanotexnologiyalar əsasında innovativ materiallar istehsalının yaradılmasını əhatə etməlidir. Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsini nəzərə alaraq “Şimal - Cənub” və “Şərq - Qərb” transmilli marşrutları üzrə nəqliyyat və xidmət klasterlərinin təşkili həyata keçirilməlidir. “Şərq - Qərb” və “Şimal - Cənub” transmilli marşrutlarında Zəngəzur dəhlizinin və Astara –Rəşt dəmir yolunun tezlikə istifadə olunmasına nail olmaq olduqca vacibdir.

Bu baxımdan, hesab edirəm ki, innovativ klasterlər təkcə neft və qeyri-neft sahələri bölgüsü üzrə yox, həm də:

- Sənaye (həm ağır, həm də yüngül sənaye sahələri);
- kənd təsərrüfatı (taxılçılıq, pambıqçılıq, heyvandarlıq və s. sahələr);
- xidmət (rabitə, nəqliyyat, iaşə və s.) sahələri üzrə təşkil olunmalıdırlar.

Yuxarıda qeyd olunduğu kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu istiqamətdə çox faydalı işlər görmək olar. Belə ki, bu regionların sənaye, aqrar və xidmət sahələri üzrə olduqca yüksək inkişaf potensialları vardır və bu amildən faydalanmaq olduqca zəruridir. Ölkə ərazisinin 20 %-dən çox sahəsini əhatə edən bu iqtisadi rayonlarda ölkə əhalisinin məşğulluq təminatı üçün də böyük potensial vardır. Əgər bu regionlarda sənaye sahələri, aqrar-sənaye və xidmət sahələri üzrə klasterlər təşkil edilərsə, bu amil ümumi daxili məhsulun və dövlət büdcəsinin də artımına səbəb olacaqdır ki, bu da ümumxalq rifahının yüksəlməsinə xidmət edəcəkdir.

Nəticə

Klasterlər, əslində bütün səviyyələrdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması mexanizmidir. Qeyd etmək lazımdır ki, sənayenin təkcə ölkəmizdə deyil, həm də dünya bazarında rəqabət qabiliyyətini təmin edə bilən müəssisələr üçün istehsal zəncirini davam etdirmək lazımdır. Belə ki, Daşkəsən - Gəncə - Sumqayıt və Zəylik- Gəncə - Sumqayıt xətləri üzrə həm dəmir, həm də alüminium istehsalı üzrə geniş klaster şəbəkəsinin qurulması problemi gündəmə gəlməlidir. Eyni zamanda bölgənin kimyəvi müəssisələrinin ərazisində istehsal olunan xammalın emalı üçün istehsal müəssisələrinin yaradılmasına diqqət yetirmək lazımdır. Həm də Azərbaycanın iqtisadi rayonları üzrə ixtisaslaşdırılmış innovativ klaserlərin təşkili iqtisadi inkişafın perspektiv davamlılığı üçün möhkəm zəmin ola bilər.

Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsini nəzərə alaraq “Şimal - Cənub” və “Şərq - Qərb” transmilli marşrutları üzrə nəqliyyat və xidmət klasterlərinin təşkili həyata keçirilməli, Zəngəzur dəhlizinin və Astara – Rəşt dəmir yolunun tezlikə istifadə olunmasına nail olmaq vacib bir iqtisadi amil kimi qarşıya qoyulmalıdır.

Azərbaycan dövləti, iqtisadiyyatını xammaldan istifadə yolundan innovativ inkişaf yoluna keçirməyə imkan verən əsas normativ sənədləri işləyib hazırlamalı və tənzimləyici təlimatlar toplusunu qəbul etməlidir.

Klasterlərin profili və cəlbediciliyi nəzərə alınmaqla rəqabət qabiliyyətinin qiymətləndirilməsi və sənaye siyasətinin əsas istiqamətlərinin hazırlanması, klaster siyasətinin həyata keçirilməsi, klasterlərin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi üçün normativ sənədlər paketlərinin hazırlanması olduqca vacibdir.

Yaxın gələcəkdə klasterləşmənin aparıcı iqtisadi qüvvəyə çevriləcəyini nəzərə almaqla klasterlərin təşkili və istifadə olunmasını bacaran mütəxəssis kadrların hazırlanması üzrə tədris və ixtisasartırma mərkəzləri yaradılmalıdır.

Bütün bu deyilənlərə görə, Azərbaycanın regionlarında klasterləşdirmə siyasəti, ölkə iqtisadiyyatının uzunmüddətli inkişafının təminatçısı kimi, dövlətin iqtisadi siyasətinin əsas prioritet istiqamətinə çevrilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il 1138 saylı Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi” Bakı, 2016. 176 s.
2. Hacızadə E.M. Neft-qaz sektorunun inkişafın iqtisadi artımına təsirinin qiymətləndirilməsi. Azərbaycanın Vergi jurnalı 2.2012 http://vergijurnali.az.upload File/part pdf.
3. Hüseynov A.G.və b. Neft-qaz sənayesinin iqtisadiyyatı və idarə edilməsi. “Letterpres” nəşriyyat evi, Bakı 2016, 553s.
4. Майкл Портер. Конкуренция. Москва: Издательский дом "Вильямс" 2005, 608с.
5. Səmədzadə Z.Ə. baş redaktorluğu ilə “Böyük İqtisadi Ensiklopediya” VII cilddə, Bakı, “Letterpres” nəşriyyat evi, 2012-2015.
6. Селищев Е.Н., Синицын И.С. Промышленные кластеры как основа инновационного развития экономики Ярославского региона/ Ярославский педагогичес-кий университет, -2011, -№4,-Том III (Естественные науки)
7. http://gossmi.ru/

Мехрибан Агасаф кызы Имранова
Азербайджанский Государственный Университет
Нефти и Промышленности, докторант
e-mail:mehriban_i@yahoo.com
ORCID:0000-0002-9112-6252

О перспективах кластеризации в Азербайджане в условиях глобализации

Резюме

Цель исследования - изучая и учитывая опыт кластеризации развитых стран, рассказать о теоретической и практической положение кластеризации в Азербайджане, обменяться мнениями о перспективном развитии промышленных кластеров как одного из инновационных механизмов экономического развития республики, обеспечить применении в нефтехимической отрасли Азербайджана инновационных кластеров в долгосрочной перспективе для обеспечения экономического развития республики.

Методология исследования – в подходе к проблеме, были использованы методы системнного анализа, структурные методы, сравнительный анализ, обобщение, стратегическое прогнозирование и.другие.

Прикладная значимость исследования - полученные результаты могут быть использованы при разработке кластерной технологии, которая обеспечит долгосрочную стратегию развития нефтехимической отрасли, а также, при расширении кластерного управления и при преподавании соответствующих специальностей в ВУЗах.

Результаты исследования - заключаются в подготовке предложений и рекомендаций по разработке и реализации долгосрочной стратегии кластеризации, с учетом современного уровня развития нефтехимической отрасли.

Оригинальность и научная новизна исследования - в статье, изучен мировой опыт решения рассматриваемых проблем и сформированы подходы, соответствующие требованиям современных условий. Кроме того, были обозначены основные стратегические цели создания и развития кластеров в нефтехимической отрасли Азербайджана, обозначены основные приоритеты кластеров на долгосрочную перспективу, а также инициатива по организации инновационных кластеров в сферах промышленности, сельского хозяйства. и услуг в долгосрочной перспективе.

Ключевые слова: кластер, нефтехимическая промышленность; региональная экономика, инновации, перспективное развитие.

Mehriban Agasaf Imranova
Azerbaijan State Oil and Industry University, PHD student
E-mail:mehriban_i@yahoo.com
ORCID:0000-0002-9112-6252

On the prospectsof clusterization in azerbaijan under globalization

Summary

The purpose of the research is to study the clustering experience of developed countries and talk about the theoretical and practical situation of clustering in Azerbaijan, to exchange ideas about the prospective development of industrial clusters as one of the innovative mechanisms of economic development, to ensure the provision of petrochemical production in Azerbaijan with innovative clusters in the long term, and to ensure the economic development of the republic to investigate the scientific and experimental factors on its organization and use.

Methodology of the research - in approaching the problem, systematic analysis, structural methods, comparative analysis, generalization, strategic forecasting, etc. methods were used.

Application importance of the research - the obtained results can be used in the development of clustering technology that will ensure the long-term development strategy of the petrochemical industry, as well as in the expansion of cluster management and teaching in relevant specialties in higher schools.

The results of the research - taking into account the modern level of development of the petrochemical industry, consists in the preparation of proposals and recommendations for the development and implementation of a long-term clustering strategy.

The originality and scientific novelty of the research - the world experience in solving the problems considered in the article was studied, and the approaches in accordance with the requirements of modern conditions were formed. In addition, the main strategic goals of the creation and development of clusters in the petrochemical industry of Azerbaijan were indicated, the main priorities of the clusters for the long term were indicated, and the initiative of organizing innovative clusters in the fields of industry, agriculture and services in a long-term perspective was put forward.

Key words: cluster, petrochemical industry; regional economy, innovation, perspective development.